

MİRDAMƏT ƏZİZ



# Hər uşaq ürəyi bir Tanrı yolu...

## UŞAQLAR

Dünyanın heyrəti gözlərindədi,
Mələklər sətrinə yaz uşaqları,
Yeri asimandı bu ulduzların,
Göyün yaxasına düz uşaqları.

Hər uşaq ürəyi bir Tanrı yolu,
Ürək sındırarmı heç insan oğlu,
Hər yerdə, hər zaman həmdəmi olub,
Eyləyək qəmini az uşaqların.

Sözündə hikmət var, sözünü dinlə,
Süzmə körpələri qəzəblə, kinlə,
Hər şeyi bağlama sən dünəninlə,
Olmurmu hər dövrün öz uşaqları?!

Bilmirəm, yolçusan, yoldan ötənsən,
Azarsan yolunu dumansa, çənsə,
Həyata bağlanmaq istəyirsənsə,
Qucaqla, bağrına bas uşaqları.

Bu yaz səhərində şeh çıxır dizə,
Səpilib körpələr tarlaya, düzə,
Oğlan uşaqları bir çəməndirsə,
Çəməndə çiçəkdir qız uşaqları.

## GƏNCLİYİNƏ DÖNÜRSƏN

*Ömür-gün yoldaşıma*

Oxumuşam qəlbini
Sözünün işığında,
Ömrünə yol gəlmişəm
Gözünün işığında.

Ərkim vüqarlanıbdı,
Sinəm qubarlanıbdı,
İzim tumarlanıbdı
İzinin işığında.

Sənsən olub-qalanım,
Gəl, başına dolanım,
Yarasadı yalanım
Düzünün işığında.

Bu göylərin nuru var,
Bu yerlərin nuru var,
Peyğəmbərin nuru var
Üzünün işığında.

Günəşli bir ömürsən,
Kim deyir ki sönürsən,
Gəncliyinə dönürsən
Qızının işığında...

## GÖYLƏRDƏN KÖÇÜB GƏLMİŞƏM

Sevən ürəklərə nə payız, nə yaz,
Bülbül olmayanın gülü də solmaz,
Məni inamımdan döndərmək olmaz,
Eşqimdir bağlayan inama məni.

Göylərdən yerlərə köçüb gəlmişəm,
Qızlardan tək səni seçib gəlmişəm,
Tanrı sınağından keçib gəlmişəm,
Sınama təzədən, sınama məni.

Elə uzaqdasan, yetişmir əlim,
Sənə deyiləsi sözüm var, gülüm,
Çevir yastığını, yuxuna gəlim,
Başqası çevirsə, qınama məni.

## QÜRBƏT ÇİÇƏKLƏRİ

Düşsə də gündə yüz kərə
Saca dünyanın əlindən,
Çiçəklər çəkməz əlini
Qoca dünyanın əlindən.

Zülmü də qarğımaz onlar,
Tanrının payıdır deyə,
Bitərlər üzü Vətənə,
Gedənlər qayıdar deyə.

Lələnin yurdu boş qalıb,
Ellər daşınıb gedibdi,
Yollar da pişiklər kimi
Köçə qoşulub gedibdi.

Boylanıb gedər-gəlməzə,
Çiçəklər dərddən əriyər,
Qönçələr partlayar bir-bir,
Qönçələr şair ürəyi.

Qorxuram dağların döşü
Əbədi möhnət qoxuya,
Can verə millətin ruhu,
Çiçəklər Yasin oxuya...

## OLMASIN

Elimi-obamı salamat görüm,
Şikəstim olmasın, şilim olmasın,
O kəsdən çəkinim, qorxum ki barı
Dəvəsindən böyük filim olmasın.

Xəbis kəc baxmasın mənə kəl kimi,
Kəsməsin yolumu bir heykəl kimi,
Gözüm hüzurunda kölgəlidimi,
Sözümü diməyə dilim olmasın?!

Sevinin, sevənlər çoxsa dünyada,
Hər gözdən bir günəş doğsa dünyada,
Məndən gül istəyən yoxsa dünyada,
Əl atım, üzməyə gülüm olmasın.

Sözlərim bar tutur, dərsin insanlar,
Əsl qiymətini versin insanlar,
Əlimin xeyrini görsün insanlar,
Xeyirsiz işlərdə əlim olmasın.

Qapımda qonaq var, süfrəmdə çörək,
Qürurla çırpınır sinəmdə ürək,
Əvvəli-axırı nəyimə gərək,
Ömrün ortasında ölüm olmasın.

